2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 avqust 2024-cü il tarixli 19 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 10 avqust 2024-cü il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə 27 saylı Sabunçu ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Allahverdiyev Ramin Novruzəli oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair 27 saylı Sabunçu ikinci seçki dairəsi dairə seçki komissiyasının (bundan sonra - dairə seçki komissiyası) 7 avqust 2024-cü il tarixli 23/70 saylı qərarından verdiyi 9 avqust 2024-cü il tarixli 19 saylı şikayətini araşdıraraq **m ü ə y y ə n e t d i m**:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatda nəzərdə tutulan müddətdə və qaydada verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırmada və Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

2024-ci il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 27 saylı Sabunçu ikinci seçki dairəsi üzrə R.N.Allahverdiyevin namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş və dairə seçki komissiyasının 15 iyul 2024-cü il tarixli 09/25 saylı Qərarı ilə namizədliyi təsdiq edilmişdir.

Namizəd R.N.Allahverdiyev tərəfindən namizədliyin qeydə alınması üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilmiş digər seçki sənədləri 2 avqust 2024-cü il tarixdə dairə seçki komissiyasına təqdim edilmişdir.

Seçki Məcəlləsinin 60.1-ci maddəsinə görə, müvafiq seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün zəruri olan digər seçki sənədlərini qəbul etdikdən sonra 7 gün müddətində namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməlidir.

Dairə seçki komissiyası namizəd R.N.Allahverdiyev tərəfindən namizədliyinin qeydə alıması üçün təqdim edilmiş imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədlərindəki məlumatları araşdıraraq namizədin də iştirak etdiyi komissiyanın iclasında onun namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə 7 avqust 2024-cü il tarixli 23/70 saylı Qərar qəbul etmiş və qərarın surəti ona təqdim edilmişdir.

Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, namizəd tərəfindən təqdim edilmiş əmlak barədə məlumatda əmlakının olmaması göstərilmiş, ancaq komissiyanın sorğusu əsasında Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxs tərəfindən verilmiş 3-23-3-02/2-9839/2024 saylı məktuba əsasən Allahverdiyev Ramin Novruzəli oğlunun adına 05.11.2019-cu il tarixdə ümumi birgə mülkiyyət hüququ ilə (mülkiyyət payı yalnız torpaq sahəsinə məxsusdur) fərdi yaşayış evi, 01.12.2023-cü il tarixdə 0.60 ha və 0.44 ha torpaq sahələri qeydiyyata alınmışdır. Qərarda namizədin qeydə alınması üçün etibarlı imzaların kifayət etmədiyi də göstərilmişdir.

Dairə seçki komissiyasının üzvləri tərəfindən 2 avqust 2024-cü il tarixdə tərtib edilmiş aktdan müəyyən edilir ki, namizədliyin qeydə alınması üçün təqdim edilmiş seçki sənədlərində düzəldilməsi mümkün olan çatışmazlıqların aradan qaldırılması üçün Seçki

Məcəlləsi ilə müəyyən edilmiş müddətdə namizəd R.N.Allahverdiyevə şərait yaradılmış və o, bundan istifadə etmişdir.

Araşdırma ilə əlaqədar seçki sənədləri dairə seçki komissiyasından tələb edilərək imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədlərindəki məlumatların təkrar araşdırılması üçün Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış işçi qrupuna təqdim edilmişdir.

Araşdırmanın nəticəsi olaraq işçi qrupunun üzvləri tərəfindən verilmiş 9 avqust 2024-cü il tarixli rəy və Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsdən alınaraq rəyə əlavə edilmiş mülkiyyət hüququna dair çıxarışlarla namizəd R.N.Allahverdiyevin ümumi birgə mülkiyyət hüququ ilə mülkiyyətində dairə seçki komissiyasının qərarında göstərilən torpaq sahələrinin mövcud olması bir daha təsdiqini tapmışdır.

Əlavə olaraq işçi qrupu tərəfindən namizəd R.N.Allahverdiyevin gəlirləri barədə təqdim etdiyi məlumatda 2023-cü ilin son 6 ayı üzrə muzdlu işdən 5 049, 19 (beş min qırx doqquz manat on doqquz qəpik) gəlirini göstərməmişdir. Həmçinin xüsusi seçki hesabına mədaxil olan və xərclənən vəsait birinci ilkin maliyyə hesabatında göstərilməmişdir.

Göstərilənlərə əsasən müəyyən edilir ki, əmlak barədə məlumatda ümumi birgə mülkiyyət hüququ ilə mülkiyyətində olan torpaq sahələrini göstərməməsinə görə R.N.Allahverdiyevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə dairə seçki komissiyasının qərarı əsaslı olmuşdur.

Araşdırma ilə namizədin qeydə alınması üçün etibarlı imzaların kifayət etmədiyi öz təsdiqini tapmamışdır.

Araşdırmanın nəticəsi olaraq namizəd tərəfindən namizədliyinin qeydə alınması üçün təqdim olunmuş seçki sənədlərində əmlak barədə məlumatların göstərilməməsi təsdiqini tapdığından müraciət əsassız hesab edilərək təmin edilməməli, R.N.Allahverdiyevin namizəd kimi qeydə alınmasından imtinaya dair 27 saylı Sabunçu ikinci seçki dairəsi dairə seçki komissiyasının 7 avqust 2024-cü il tarixli 23/70 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 60-cı, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m**:

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Allahverdiyev Ramin Novruzəli oğlunun 9 avqust 2024-cü il tarixli 19 saylı müraciəti təmin edilməsin, 27 saylı Sabunçu ikinci seçki dairəsi dairə seçki komissiyasının 7 avqust 2024-cü il tarixli 23/70 saylı Qərarı dəyişdirilmədən saxlanılsın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov